AZƏRBAYCAN www.azerbaijan-news.az

# ADA Universitetində Təhsil Siyasəti və Tədqiqatı Forumu keçirilib

Martın 18-də ADA Universitetində bu ali məktəbin, ABŞ Təhsilli Azərbaycan Məzunları İctimai Birliyinin, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin birgə təşkilatçılığı ilə "Yerli və beynəlxalq təhsil təcrübələrinin yaxınlaşması" mövzusunda Təhsil Siyasəti və Tədqiqatı Forumu keçirilib.

Forumda ADA Universitetinin rektoru Hafiz Paşayev rəhbərlik etdiyi ali məktəbin bu tədbirə ev sahibliyi etməsindən məmnunluğunu bildirib. Rektor bu əməkdaşlığın təhsilə töhfə verəcəyinə inamını ifadə edib. Ölkəmizdə təhsilə xüsusi diqqət göstərildiyini vurğulayan H.Paşayev yüksək ixtisaslı, bacarıqlı mütəxəssislərin hazırlanmasının əhəmiyyətindən danışıb. Universitetin nəzdində ABŞ-ın Miçiqan Universiteti ilə birgə təsis edilmiş və fəaliyyət göstərən təhsilin idarəedilməsi fakültəsi barədə məlumat verən rektor bu fakültənin təhsil sahəsində bacarıqlı menecerlərin hazırlanması zərurətindən yarandığını söyləyib.





Tədbirdə çıxış edən təhsil naziri Mikayıl Cabbarov ölkəmizdə elmin, təhsilin inkişafına dövlət qayğısından danışıb. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq bu istiqamətdə sistemli işlərin həyata keçirildiyini vurğulayıb. Nazir bu istiqamətdə görülən işlərin əsas məqsədinin ölkəmizin təhsil sistemini təkmilləşdirmək, Azərbaycanın iqtisadi və sosial maraqlarını təmin edəcək mütəxəssislər yetişdirmək olduğunu bildirib. Forumun ölkəmiz üçün əhəmiyyətini vurğulayan nazir aparılan tədqiqatların cəmiyyətə çatdırılmasında belə tədbirlərin böyük rol oynadığını bildirib. "Azərbaycan üçün öyrət" adlı yeni milli təhsil proqramından danışan M.Cabbarov layihənin məqsədinin keyfiyyətli təhsil imkanları yaratmaqla yeni nəsil intellektual və fəal gənclərin formalaşmasına kömək etmək olduğunu söyləyib. Təhsil naziri foruma təqdim olunan hər bir tədqiqatın araşdırılacağını və onların təhsil sistemində tətbiqinə nazirlik tərəfindən kömək göstəriləcəyini bildirib.

Sonra 25 tədqiqat işi arasından seçilən yeddi layihənin təqdimatı keçirilib, mövzulara dair videoçarxlar göstərilib.

Qaliblər mükafatlandırılıblar.

**AZƏRTAC**